*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 104-110*

https://doi.org/10.62837/2025.8.104

**AYTAC QAZIYEVA**
**AĞAYEVA KÖNÜL**
**Azərbaycan Universiteti**
**Bakı Azərbaycan**
**Mammadovaay45@gmail.com**
**Konul.Aghayeva@au.edu.az**

# "İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOMMUNİKATİV YANAŞMA VƏ ONUN EFFEKTİVLİYİ"

Bu məqalədə ingilis dilinin tədrisində kommunikativ yanaşmanın əhəmiyyəti, onun əsas prinsipləri, tətbiq üsulları və effektivliyi araşdırılır. Dilin əsas funksiyası – ünsiyyət vasitəsi olmaqdır və bu yanaşma tələbələrə dili real həyat şəraitində istifadə etməyi öyrədir. Kommunikativ metod qrammatika mərkəzli ənənəvi üsullardan fərqli olaraq, danışıq, dinləmə, oxuma və yazma bacarıqlarının inteqrasiyasını önə çıxarır. Məqalədə Larsen-Freeman, Richards, Harmer və Brown kimi alimlərin fikirlərinə əsaslanaraq, rol oyunu, informasiya boşluğu, dialoqlar kimi fəaliyyətlərin tələbələrin aktiv öyrənməsinə təsiri göstərilir. Eyni zamanda bu yanaşmanın tətbiqində çətinliklər (böyük auditoriyalar, müəllim təcrübəsi, tələbə passivliyi və s.) qeyd edilir. Buna baxmayaraq, düzgün tətbiq edilən kommunikativ metod dil öyrənmənin keyfiyyətini artırır və tələbələrə dili funksional şəkildə mənimsəmək imkanı verir.

***Açar sözlər:*Kommunikativ yanaşma, dil öyrənmə metodları, rol oyunu, informasiya boşluğu, müəllim rolu, dinləmə bacarıqları, sinifdaxili kommunikasiya, real ünsiyyət bacarıqları**

**AYTAJ QAZIYEVA**
**AGAYEVA KONÜL**

## "The Communicative Approach in English Language Teaching and Its Effectiveness"

## English

This article explores the importance, principles, methods, and effectiveness of the Communicative Approach (CLT) in teaching English. Emphasizing that language is primarily a means of communication, the approach focuses on helping learners use the language in real-life situations. Unlike traditional grammar-centered methods, CLT promotes the integration of speaking, listening, reading, and writing skills. Citing experts such as Larsen-Freeman, Richards, Harmer, and Brown, the article highlights the impact of role plays, information gap tasks, and interactive dialogues on developing learners' communication skills. Although challenges such as large

auditoriums,teacher inexperience, and student fear of making mistakes are acknowledged, the article concludes that when properly implemented, CLT significantly enhances the efficiency and quality of language learning.

***Keywords:*Communicative approach, language learning methods, role-play, information gap, teacher's role, listening skills, classroom communication, real-life communication skills**

**РУССКИЙ**

В статье рассматривается значимость, принципы, методы и эффективность коммуникативного подхода (CLT) в обучении английскому языку. Подчеркивается, что язык прежде всего является средством общения, и данный подход помогает учащимся использовать язык в реальных жизненных ситуациях. В отличие от традиционных методов, ориентированных на грамматику, CLT способствует интеграции навыков говорения, аудирования, чтения и письма. Ссылаясь на мнения таких ученых, как Ларсен-Фриман, Ричардс, Хармер и Браун, автор показывает, как ролевая игра, задания на обмен информацией и диалоги способствуют активному обучению. Также упомянуты трудности внедрения этого подхода (Большие аудитории, недостаток опыта у преподавателей, страх студентов ошибиться). Тем не менее, при грамотной реализации коммуникативный метод существенно повышает эффективность и качество обучения иностранному.

***Ключевые* слова:**Коммуникативный подход, методы изучения языка, ролевая игра, информационный пробел, роль преподавателя, навыки аудирования, внутриклассная коммуникация, навыки реального общения

Giriş

Dil, insanın fikirlərini, duyğularını və ehtiyaclarını başqalarına çatdırmaq üçün ən əsas və canlı ünsiyyət vasitəsidir. Uşaq dilin təbiəti və funksiyası haqqında ən dərin və təbii nümunələrdən biridir. Hər kəs həyatında bir dəfə də olsa, uşaqların inanılmaz ünsiyyət qabiliyyətini müşahidə edib. Uşaqların dil bacarıqlarının inkişafı onların ətrafda eşitdikləri sözləri və səsləri təqlid etməsindən başlayır və zamanla bu qabiliyyət mürəkkəb, dinamik kommunikasiya bacarığına çevrilir. Təxminən 18 aylıq olanda onların söz ehtiyatı sürətlə artır və 3 yaşına çatdıqda isə onlar çox geniş və zəngin bir dil anlama və ifadə qabiliyyətinə malik olurlar. Bu prosesin özü dilin əsas funksiyasını — kommunikativ vasitə olmasını vurğulayır.

Dil öyrənmək yalnızca qrammatikanı mənimsəmək deyil, eyni zamanda fikirlərimizi, duyğularımızı və ehtiyaclarımızı başqalarına çatdırmaqdır. H. Douglas Brownun da qeyd etdiyi kimi, dilin ən böyük üstünlüklərindən biri onu eşitmək və ünsiyyət vasitəsi kimi istifadə etməkdir. (Brown, Principles of Language Learning and Teaching, *1.s.35*). Beləliklə, kommunikativ yanaşma dili öyrənmə prosesində, qarşılıqlı əlaqəyə əsaslanan ünsiyyəti ön plana çəkir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 104-110*

Müasir dövrdə xarici dil öyrənmə metodologiyasında baş verən dəyişikliklər, xüsusilə də kommunikativ yanaşmanın (Communicative Language Teaching – CLT) tətbiqi, tədris prosesində daha effektiv nəticələrin əldə olunmasına səbəb olmuşdur. Ənənəvi metodlarla müqayisədə kommunikativ yanaşma tələbələrin dil bacarıqlarını praktik şəkildə inkişaf etdirməyə, real həyat şəraitində ünsiyyət qurmağa və dilin funksional istifadəsini mənimsəməyə imkan yaradır. Bu yanaşma dil öyrənməni yalnız qrammatik qaydaların öyrənilməsi ilə məhdudlaşdırmır, əksinə, danışıq, dinləmə, oxuma və yazma bacarıqlarının inteqrasiya olunmuş şəkildə inkişafına şərait yaradır.

Bu məqalədə məqsəd ingilis dilinin tədrisində kommunikativ yanaşmanın əsas prinsiplərini, tətbiq üsullarını və onun effektivliyini araşdırmaqdır. Eyni zamanda, bu metodun tətbiqində qarşıya çıxan problemlər və mümkün həll yollarına da toxunulacaq. Məqalədə həm nəzəri mənbələrə, həm də müxtəlif tədqiqat nəticələrinə əsaslanaraq kommunikativ yanaşmanın tədrisdə rolu və faydaları təhlil olunacaqdır.

Ünsiyyət qurmaq yalnız dil bilikləri ilə məhdudlaşmır; ünsiyyət bacarığı tələb edir— nə vaxt, necə və kiminlə nə deməyi bilmək. Tələbələr dil qaydalarını bilə bilərlər, amma dili istifadə etmək bacarığı olmaya bilər. Bu metodlar əsasən qrammatik qaydalara, təkrarlara və yadda saxlama texnikalarına əsaslansa da, tələbələrin real ünsiyyət bacarıqlarını inkişaf etdirməkdə qeyri-kafi qalırdı. Elə bu baxımdan kommunikativ yanaşma britaniyalı dil tədrisi mütəxəssisləri tərəfindən hazırlanmış və sonradan beynəlxalq miqyasda qəbul edilmiş və 1970-ci illərin əvvəllərində ənənəvi dil tədrisi metodlarının effektiv olmaması səbəbindən inkişaf etdirilmişdir.

Kommunikativ yanaşmada bir sıra prinsiplər ön planda dayanır.Bu prinsiplərə nəzər salsaq görərik ki, danışıq, dinləmə, oxuma və yazma bacarıqları birlikdə inkişaf etdirilir. Danışıq bacarıqlarını necə inkişaf etdirə bilərik ? Bunun üçün ilk növbədə danışmaq üçün kompleksi üzərimizdən atmalı, səhvlərdən çəkinmədən danışmalı, yeni ifadələr və sözlər öyrənib gündəlik danışıqda onları tətbiq etməli, ana dili ingilis dili olanlarla mütəmadi ünsiyyət qurmalıyıq. Nəzərə alaq ki, başqa dil öyrənməkdə müəllimin rolu da əvəzsizdir. Diane Larsen-Freeman öz kitabında qeyd edir ki, müəllimin ilkin rolu əsasən müşavir (konsultant) olmaqdır. Bu o demək deyil ki, müəllim terapevt kimi fəaliyyət göstərir və ya dərs keçmir, əksinə, müəllim anlayır ki, yeni öyrənmə vəziyyəti yetkin yaşda olan tələbələr üçün nə qədər qorxuducu ola bilər, ona görə də o, tələbələrini dil öyrənmək mübarizəsində bacarıqla dəstəkləyir.

Başlanğıcda tələbələr müəllimə çox asılıdırlar. Lakin qəbul edilir ki, tədris davam etdikcə tələbələr getdikcə müstəqil olurlar. Community Language Learning (İcma Dil Öyrənmə) metodoloqları bu asılılıqdan müəllimlə qarşılıqlı asılılığa keçid üçün beş mərhələ müəyyənləşdiriblər.Birinci, ikinci və üçüncü mərhələlərdə müəllim təkcə dilə deyil, həm də tələbələrin öyrənmə prosesində onlara dəstək olmağa diqqət

yetirir. Dördüncü mərhələdə tələbələrin dildə daha çox güvən qazanması və düzəlişlərdən faydalanmağa hazır olmaları səbəbindən müəllim daha çox dəqiqliyə yönələ bilər. Beşinci mərhələdə isə tələbələrdə kommunikativ bacarıqları ön plana çıxartmaq lazımdır. Qeyd etmək lazımdır ki, dəqiqlik həmişə diqqət mərkəzindədir, hətta ilk üç mərhələdə də, amma bu vaxt dəqiqlik axıcılığa tabe olur. Dördüncü və beşinci mərhələlərdə isə vəziyyət əksinədir — dəqiqlik ön plana çıxır. "Techniques and Principles in Language Teaching"- Diane Larsen-Freeman(2.s.127)

İngilis dilinin intensiv tədrisində müəllimin rolu əvəzsizdir. Bu rolu icra edərkən müəllim bir sıra metodlardan istifadə edir. Bu metodlardan biri də təbii yanaşma metodudur. Təbii Yanaşma müasir kommunikativ metodlardan daha çox müəllimin mərkəzi rolunu tələb edir. Müəllim maraqlı, dostyana və aşağı affektiv süzgəcli sinif mühiti yaratmalıdır. Bu, tələbələr danışmağa hazır olmadan danışıq tələb etməmək, tələbə səhvlərini düzəltməmək və tələbələr üçün yüksək maraqlı mövzular təqdim etməklə əldə edilir. Müəllimin əsas rolu tələbənin ən çox təklifə açıq olduğu vəziyyətləri yaratmaq və dil materialını tələbənin onu müsbət qəbul etməsinə və yadda saxlamasına ən çox kömək edəcək şəkildə təqdim etməkdir. Lozanov müəllimlərdən aşağıdakı davranışları gözləyir:

- Metoda tam inam göstərmək.
- Nəzakətli davranış və geyim qaydalarına ciddi riayət etmək.
- Tədrisin ilk mərhələlərində təlim prosesini, musiqini və şəxsi keyfiyyətləri uyğun şəkildə təşkil etmək.
- Sessiyaya doğru müəyyən bir həyəcan və diqqət saxlamaq.
- Qiymətləndirmələr vermək və zəif işlərə nəzakətlə yanaşmaq.
- Materiala analitik yox, ümumi yanaşmanı vurğulamaq.
- Mülayim həvəs göstərmək.

Jack C. Richards və Theodore S. Rodgers (Approaches and Methods in Language Teaching" 3. s.149)

Bu davranışlarla yanaşı müəllim bir sıra metodlardan istifadə edərək kommunikativ mühit yarada bilir. Georgi Lozanov tərəfindən yaradılmış Suggestopedia metodunda musiqi və rahat mühitdən istifadə etməklə, stressi azaltmaq və yaddaşda daha yaxşı saxlamağı təmin etmək mümkündür. Əlavə etmək olar ki, ingilis dili öyrənməyin effektiv yanlarından biri də keçirilən fənlərinin ingilis dilində tədrisidir. Bu zaman ingilis dili həm dil, həm də başqa bir fənnin tədrisi üçün vasitə kimi istifadə olunur. Başqa bir metod kimi tələbələrin müəyyən tapşırıqları yerinə yetirməklə (problemi həll etmə, müzakirə və layihə üzərində işləmə) dili təbii şəkildə öyrənməsini də qeyd etmək olar. Bütün bu metodların ümumi cəmi kimi isə məqsəd tələbələrin real həyatda danışıq qabiliyyətini inkişaf etdirməkdir. (Lozanov, Georgi, Suggestopedia.Gordon and Breach 1978 6.s.8)

Dilin kommunikasiya vasitəsi kimi inkişafında bünövrədə qoyulan biliklər də dəstəkləyici şəkildə öz rolunu oynaır.Tutaq ki, siz İqtisadiyyat ixtiası üzrə

universitetin ingilis dili fakültəsinə qəbul olmusunuz. İlk növbədə sizdən tələb olunan ingilis dilini mükəmməl şəkildə mənimsəmək, sonrasında isə öz ixtisasınıza yiyələnməkdir. Əks təqdirdə siz öz ixtasınızda bir sıra çətinliklərə qarşılaşa bilərsiniz.

Qeyd etmək istərdim ki, hər bir ixtisasda ingilis dilini tədris edən müəllim öz tələbəsini danışıq mühitindən başqa həmin ixtisasda olan terminlərə yiyələnəcək və ona fayda verə biləcək biliklərlə üz-üzə qoymalıdılır. Məsələn, xəritə tamamilə boş olduqda yerləri təsvir etmək və tapmaq xeyli çətin olur, amma bəzi küçələr və məkanların istinad nöqtələri kimi adlandırıldığı halda bu iş daha asanlaşır. Burdan belə qənaətə gəlmək olar ki, təhsil alan tələbə təkcə kommunikativ bacarıqlarını deyil, həmçinin öz ixtisasının dərinliklərini də daha yaxşı inkişaf etdirəcək.

Kommunikativ yanaşma çərçivəsində interaktiv metodlar – o cümlədən qrup işi, rol oyunu, informasiya boşluğu, dialoq qurma və problem həll etmə tapşırıqları – dərslərdə geniş tətbiq olunmalıdır. Tutaq ki, A2 səviyyəsində olan ingilis dili dərsində tələbələr 4 nəfərlik qruplara bölünərək "A Perfect Weekend Plan" mövzusunda tapşırıq yerinə yetirirlər. Hər bir tələbə öz həftə sonu planını təqdim edir, digər iştirakçılar suallar verir və ən maraqlı planı seçmək üçün sonda birlikdə qərar verirlər. Bu fəaliyyət tələbələrin danışıq bacarığını inkişaf etdirməklə yanaşı, dinləmə, reaksiya vermə və qərar qəbuletmə kimi kommunikativ komponentləri də gücləndirir.

B1 səviyyəsində tələbələrə belə bir vəziyyət verilir: “Siz restoranda ofisiant və müştəri kimi dialoq aparmalısınız.” Bir cütlük ofisiant, digəri isə müştəri rolunda çıxış edir. Onlar menyudan sifariş vermək, qiymət soruşmaq, xidmətlə bağlı şikayət bildirmək və hesab istəmək kimi real həyat dialoqunu canlandırırlar. Bu metod tələbələrin real situasiyalarda özünü ifadə etmə bacarığını artırır.

Tələbələrin restoranda ofisiant və müştəri kimi çıxış etdiyi rol oyunu zamanı onlar funksional dil vahidlərindən istifadə etməklə ünsiyyət qurma bacarığını inkişaf etdirirlər. Bu cür fəaliyyətlər öyrənənləri aktiv kommunikativ mühit yaratmağa sövq edir və real həyat situasiyalarında dilin tətbiqinə imkan yaradır. (Richards, 2006; Harmer, 2007;).

Müəllim tələbələrə gündəlik həyatda istifadə olunan dialoqun müəyyən hissələrini təqdim edir. (məsələn: “Hello, how can I help you?” / “I’m looking for a jacket.”). Daha sonra tələbələr çatışmayan hissələri tamamlayaraq dialoqu bütövləşdirir. Bu üsulda tələbələr daha çox gündəlik ifadələrdən istifadə edərək dialoqu tamamlayır və səhnələşdirirlər. Bu fəaliyyət hazır dil vahidlərinin tətbiqini gücləndirir.

İnformasiya boşluğuna numunə üçün isə iki tələbəyə fərqli, lakin bir-birini tamamlayan məlumat vərəqləri verilir. Məsələn, biri turizm broşürünü oxuyur, digəri otel siyahısını. Onlar bir-biri ilə sual-cavab apararaq ortaq bir səyahət planı

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 104-110*

hazırlamalıdırlar.Bu tip tapşırıqlar tələbələri real məqsədlə ünsiyyət qurmağa təşviq edir və dinləmə və danışma bacarıqlarını eyni anda inkişaf etdirir.

Göstərilən numunələrdə Richardın kommunikativ yanaşma barədə fikirlərinin təzahürünü görmək olar. O deyirdi: ”Kommunikativ tədrisin əsas məqsədi – tələbələrin dil biliklərini real ünsiyyətə tətbiq etmə bacarığını inkişaf etdirməkdir”. Bu üsul və vasitələri tətbiq edərək effektiv bir nəticə əldə etmək mümkündür. Yəni, elə bir problem ola bilər ki, tələbələr onu həll etməlidir, yaxud elə bir informasiya ola bilər ki, malik olduqları dili istifadə edərək onlar bunu bir-birilə paylaşmalıdırlar. Yəni, onların konkret situasiyaya uyğun dil formalarını seçmələri tələb olunmur. Hətta onların istifadə etdiyi dilin qrammatik baxımdan düzgün olub-olmaması belə vacib olmaya bilər. Fəaliyyətin əsas məqsədi ondan ibarətdir ki, tələbələr bildikləri dili istifadə edərək mənaları mümkün qədər effektiv şəkildə ötürməyə çalışsınlar. Communicative Language Teaching William Littlewood (5.s.20-21)

Kommunikativ metod kimi dinləmənin əhəmiyyətini ayrıca qeyd etmək istərdim. Dinləmə bəzən passiv bacarıq kimi adlandırılır. Bu səhvdir, çünki dinləmə dinləyicidən aktiv iştirak tələb edir. Danışanın niyyət etdiyi mesajı yenidən qurmaq üçün dinləyici həm dil, həm də dil xarici biliklərindən aktiv şəkildə istifadə etməlidir. Məsələn, "Ready?" sözü bəzi hallarda yeməyə dəvət, digər hallarda isə tamamilə fərqli mənaya malik ola bilər. Həmçinin, "Why don't you close the door?" ifadəsinin kommunikativ dəyəri vəziyyətə və sosial münasibətə bağlıdır. Gündəlik həyatdakı çoxsaylı ifadələr fərqli vəziyyətlərdə fərqli mənalar daşıya bilər və yalnız aktiv kommunikasiya prosesi sayəsində biz mənaları düzgün qəbul edə bilirik. Dinləmə zamanı dinləyici bilməlidir ki, bütün ipucları bərabər əhəmiyyətli deyil. Buna görə, bir neçə sözü qaçırsa belə, panikaya düşməməlidir. Çox vaxt digər ipucları ona mesajı başa düşməyə kömək edə bilir, ya da ən azından məqsədinə yetəcək qədərini anlamağa kömək edir. Təbii ki, qaçırdığı söz mesajın mənasını tamamilə dəyişsə belə, əsas məqam odur ki, öyrənən kommunikasiya prosesində aktiv qalaraq öz yanlış anlamasını anlamaq şansını artırır. Dinləmənin aktiv və davamlı olması öyrənənin kommunikativ məqsədlə dinləməsini tələb edir. Deyərdim ki, dinləmə anlamağın aktiv təbiətidir. Communicative Language Teaching William Littlewood (5.s.68-69)

Bəzi hallarda kommunikativ yanaşmanın tətbiqi müəyyən çətinliklərlə müşahidə oluna bilir:

- Daha geniş ortamlarda bu yanaşmanın istifadəsi özünü doğrultmaya bilər. Məsələn: böyük auditoriyalarda bütün tələbələrin aktiv iştirakını təmin etmək çətindir. Burada vaxt bölgüsü əsas çatışmazlıq kimi nəzərə alına bilər.
- Həmçinin Müəllimlərin bəziləri bu metodologiyanı təcrübəsizlik və resurs çatışmazlığı səbəbindən tam tətbiq edə bilmir.
- Tələbələr arasında passivlik və “dil səhvi etməkdən qorxma” halları müşahidə olunur.

Bütün bu çətinliklərə baxmayaraq, düzgün planlaşdırılmış və məqsədyönlü şəkildə tətbiq edilən kommunikativ fəaliyyətlər dil öyrənmənin effektivliyini və keyfiyyətini artırır**.** Nəticə olaraq, kommunikativ yanaşma (Communicative Language Teaching – CLT) ingilis dilinin öyrədilməsində ənənəvi metodlardan fərqli olaraq, tələbələrin dil bacarıqlarını real ünsiyyət şəraitində inkişaf etdirməyə yönəlmiş müasir və effektiv bir tədris metodudur. Bu yanaşma, dili sadəcə qrammatik strukturlar toplusu kimi deyil, funksional və məqsədyönlü bir ünsiyyət vasitəsi kimi təqdim edir. Məqalədə qeyd olunduğu kimi, tələbələrin danışıq, dinləmə, oxuma və yazma bacarıqlarını inteqrasiya olunmuş şəkildə inkişaf etdirmək, onların dil biliklərini praktik situasiyalarda tətbiq etməyə hazır olmalarına zəmin yaradır.

## ƏDƏBİYYAT SİYAHISI

1.Brown, H. Douglas. *Principles of Language Learning and Teaching*. 6th Edition. Pearson Education, 2007.

2.Larsen-Freeman, Diane. *Techniques and Principles in Language Teaching*. 3rd Edition. Oxford University Press, 2000.

3.Richards, Jack C., and Theodore S. Rodgers. *Approaches and Methods in Language Teaching*. 3rd Edition. Cambridge University Press, 2014.

4.Harmer, Jeremy. *The Practice of English Language Teaching*. 4th Edition. Pearson Longman, 2007.

5.Littlewood, William. *Communicative Language Teaching: An Introduction*. Cambridge University Press, 1981.

6.Lozanov, Georgi. *Suggestopedia*. Gordon and Breach, 1978.

7.Richards, Jack C. *Communicative Language Teaching Today*. Cambridge University Press, 2006.

**Rəyçi: f.ü.f.d. Bağırzadə Züleyxa**